# MEHDİ BƏYİN HƏCVİ

## BABA BƏY ŞAKİR

Pdfləşdirən: kitablar sayti

http://www.kitablar.com

BABA BƏY ŞAKİR QARABAĞLI MEHDİ BƏYİN HƏCVİNDƏN BİR PARÇA Bu neçə kar idi saldın araya, sağ olma. Qoşulub hər dəliyə sən dəxi sarsaq olma, Ehtiyat ilə dolan, mürşidinə ağ olma, Sən də atan kimi çox hərzəvü yanşaq olma, Ey xətadidə, uşaq həcv edəməz pirani. Mirzə Adıgözəl ilə, bəli, bundan sabiq, Əmiraslan idi bədkar, ləvəndü fasiq, O idi mülki-Qarabağda həcvə layiq, İndi nahaq yerə bu sürçək ayaq nabaliğ, Eylədi məhz fəramuş Əmiraslani. Bir deyən yoxdu vilayətdə ki, oğlan, sənə nə, O cavanşir Cavanşir Əmiraslan sənə nə, Eylədi mədh onu, ya söylədi hədyan, sənə nə, Lənət olsun sənə, ey şairi-meydan, sənə nə - Ki, deyirlər sataşır hər yetənə filani. Yetmiş idi mənə çoxdan şüəralıq xəbərin, Gözləyirdim ki, haçan ta ola zahir əsərin, İndi əfsanən ilə oldu müşəxxəs hünərin, Nə təəccüb yeri var munda, elə töxmi-xərin, Olur, əlbəttə, sənin kimi münasib xani. Eşşəyin gər axurun sim ilə təmir edəsən, Qarnını kişmiş ilə şamü səhər sir edəsən, Çulunu atlasü ya tirmeyi-Kəşmir edəsən, Zəri-xalisdən ona noxtavü zəncir edəsən, Qədrü qiymətdə yenə atdan olur ərzani. Demək olmaz üzünə çox adamın hər sezünü, Çoxları pərdə çəkib, sirlərin örtər üzünü, Töxmi-Kəbirli gərəkdir danışa xər sözünü, Ağzına alma, gədə, sən zərü zivər sözünü, Düşsə hər yerdə sözü sal yadına palani. Təni-müflislik edibsən mənə sən, ey əclaf, Bu sözü bir də desən, mən cıraram ağzını saf, At ilə eşşək edə bəhs, deyil, bu, insaf, Xəri-İsa edə gər Məkkəyə yüz kərrə təfav, Əmri-müşkildi tapa mərtəbeyi-insani. Nə münasib alasan zat sözün ağzına sən, Ondan ötrü ki, ləvənd zatınızı çoxdu' görən, Şərhü təqrir, nə hacət ki, qılım bir dəxi mən, Siz bizim əsl ilə gəlməzsiniz, ey eşşək, tən, Urmuşuz ruzi-əzəl başınıza noxtani. Görməyən kimdir olarnan sizi fərmanında, Duşbərduş sərasər dərü divarında, Üzüqoylu sürünən dəhlizü eyvanında, Zatınız zatımızın eylə gəzib yanında, Necə kim, it görücək sahibini şərmani. İstəmən bir də bu bədkarü bədətvarı görüm, Tündxü, fahişəru, biqəmü biarı görüm, Bihəya, bisərü pa səxt, dilazarı görüm, Nistü nabud eləsin tezlik ilə tarı görüm, Zatımız adını hər yerdə deyib lovğani. həqqi dilgir edəni həqq özü dilgir eylər, Bəzinə tezlik ilə, bəzisinə dir eylər, Bəddua adəmə axır belə təsir eylər, Pənah, allaha pənah kgr necə təqrir eylər, Əliyar oğlu belə sarı səkil madyani. Mən sizə dəyməz idim, sən məni məcbur etdin, Xaneyi-söhbətimi tazəcə məmur etdin, Əmiraslan idi mənzur, onu dur etdin, Bilməzəm heç sən, ey Xuli, nə mənzur etdin - Ki, bu boş başına açdın bu böyük qovğanı. Mən idim həcv qılan elləri mundan əvvəl, Yox idi həddi mənimlə tuta bir kimsə cədəl, Qocalıq indi salıb gülşəni-eyşimə xələl, Anlayıblar ki, bu işdən usanıb çəkmişəm əl, hər qoduq cevlan edər, xali körüb meydani. Bir belə şüğli xudadən mən özüm istərdim, Ta məkər cuşa kələ küreyi-diki-sərdim, Şükrlilləh ki, bu dürd oldu dəvayi-dərdim, Bir neçə bənd sərasimə yazıb göndərdim, Ki, əcəl versə aman dalı gələr tulani. Bilmişəm bişərəf ustadını danmaq olmaz, Yüz danışsa, sözünün birini qanmaq olmaz. Rəsmdir onlara oğraşlıq, utanmaq olmaz, Dəxi bundan belə əl çəkmək, usanmaq olmaz, Qıl xəbərdar anı, ta kim, tanısın Babani.